AYDAN ŞAHMAROVA
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*
aydan.shahmarova.nazim@bsu.edu.az

# UNİVERSAL ELMİ KİTABXANALARDA TAMMƏTNLİ ELEKTRON NƏŞRLƏRİN XARAKTERİSTİKASI VƏ ONLARLA XİDMƏTİNİN TƏŞKİLİ

***Xülasə:*** *Məqalə kitabxanaşünaslıq nəzəriyyəsində mühüm yer tutan tammətnli elektron nəşrlərin müqayisəli təhlilinə həsr olunmuşdur.Müasir informasiya cəmiyyətinin ən vacib istiqamətlərindən biri olan universal kitabxanaların oxuculara informasiya xidmətinin təşkili prosesləri və vasitələri daim diqqət mərkəzində olmuşdur. Baş verən informasiya inqilabı universal kitabxanaların da inkişafından yan keçməmiş, onun təşkilinə yeni-yeni istiqamətlər gətirmişdir.Məqalədə universal elmi kitabxanalarda tammətnli elektron nəşrlərdən istifadə edilməsinə dair nəzəri konsepsiyalar analitik şəkildə təhlil edilir və burada olan bütün məlumatlar kitabxanaşünaslıq nəzəriyyəsində mövcud olan zəngin faktlara əsaslanır.*

***Açar sözlər:*** kitabxana, universal elmi kitabxana, elektron kitabxana, elektron məlumatlar bazası, elektron nəşrlər, tammətnli elektron nəşrlər, mənbə.

**Giriş.** Müasir dünyada baş verən texnoloji inqilab, qlobal dəyişikliklər, informasiya cəmiyyətinin inkişafı sosial müəssisələrin də inkişafına müsbət təsir göstərir. Bu sosial müəssisələr arasında əsas yeri kitabxanalar tutur. Respublikamızın kitabxana şəbəkələri içərisində universal elmi kitabxanaların xüsusi mövqeyi var. Ölkəmizdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində universal elmi kitabxanalar zəngin kitab fonduna sahib və dövlət tərəfindən maliyyələşdirilən ən böyük şəbəkəyə malikdir. Bu kitabxanalar öz inkişafı dövründə böyük təcrübə toplamış, əsaslı uğurlara nail olmuş, kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsinin mühüm halqalarından biri kimi fəaliyyət göstərmişdir.

Universal elmi kitabxanalar xarici ölkə kitablarını toplayıb saxlayan, respublikamızda nəşr olunan bütün ədəbiyyatın pulsuz məcburi nüsxəsini alan, beynəlxalq kitab mübadiləsi aparan, respublika regional və ümumdövlət əhəmiyyətinə malik olan müəssisədir.Bu kitabxanalar oxucuların bütün sorğularına cavab vermək məqsədi ilə zəngin informasiya fonduna, məlumat-biblioqrafiya materiallarına, biblioqrafik göstəricilərə, müxtəlif formalı və məzmunlu məlumat daşıyıcılarına malik olmalıdır.Zəngin biblioqrafik informasiya materiallarını nəşr edən mərkəz kimi onun fəaliyyəti ön plana çəkilməlidir.

Universal elmi kitabxanalar tipindən, növündən və idarə tabeçiliyindən asılı olmayaraq respublikada bütün kitabxanaların elmi-metodik və əlaqələndirmə mərkəzidir.Belə bir mərkəz rolunu oynamaq üçün onlar elmi-tədqiqat statusuna malik olmalı, respublikada kitabxana işinə dair elmi və sosioloji tədqiqatlar aparmalı, kitabxana işinin günün tələbləri səviyyəsinə qaldırılması

üçün tövsiyələr verməlidir.Onlar universal mövzularda bütün sorğulara cavab verməli, elmi, köməkçi, tövsiyə biblioqrafik vəsaitləri hazırlamalı, dövlət orqanlarına, onların işçilərinə informasiya xidmətini təşkil etməli, bülletenlər və digər biblioqrafik vəsaitlər nəşr etməlidir.Universal elmi kitabxanalar beynəlxalq kitabxana forumlarında, tədbirlərdə yaxından iştirak etməli, respublika kitabxanalarının beynəlxalq əlaqələrinin möhkəmləndirilməsinə kömək göstərməlidirlər.Universal elmi kitabxanalar tipinə bu kitabxanalar daxildir:

–M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

–AMEA Mərkəzi Elmi Kitabxanası

–Respublika Parlament Kitabxanası

–Naxçıvan Muxtar Respublikası Dövlət Kitabxanası

**Əsas hissə.** XX əsrin ortalarından başlayaraq informasiya kütləsinin həcmi surətlə artmağa başladı.İnsanlar informasiya axınının qarşısında ənənəvi nəşr növləri ilə dayana bilmədilər.Bu da öz növbəsində cəmiyyətdə kəskin informasiya böhranı yaratdı.İnformasiyanın emalı və mənimsənilməsini asanlaşdırmaq üçün alternativ nəşr növü olan elektron nəşr yaradıldı.Dünyada ilk elektron nəşrin yaradılması təşəbbüsü ABŞ-da irəli sürülmüşdür.Amerikalı professor Maykl Hard 1971-ci ildə ilk elektron nəşr nümunələrini yaratmışdır.O, öz layihəsinə ilk kitab çapçısı İohan Quttenberqin adını vermişdir.

Elektron nəşr axtarış vasitələrilə təmin edilmiş, qeyri-məhdud sayda istifadəçilərin oxuması üçün məqsədli şəkildə maşınlaoxunan daşıyıcıya yazılmış informasiyadır.Nəşriyyatlarda, elmi cəmiyyətlərdə, kitabxanalarda yaradılan elektron resurslar elektron nəşrlərə misal ola bilər.Kağız sənədlərin ləng hazırlanması, nisbətən çox sahə tutması, məkan etibarilə gec və məhdud dairədə yayılması kimi göstəricilər elektron nəşrlərin yaradılmasına səbəb olan əsas obyektiv amillərdir. Elektron nəşrlər elektron sənədlərin müəyyən hissəsini təşkil edir. Elektron nəşrlər komputerin sərt diskində, serverdə, uzaqlaşdırılmış şəbəkə resurslarında, veb-saytlarda, müxtəlif qurumların və kitabxanaların elektron məlumat bazalarında mühafizə oluna bilər.Elektron nəşrin geniş şəkildə yayılması üçün o mütləq şəkildə internet şəbəkəsində yerləşdirilməlidir.

Elektron nəşrlər çap əsərləri kimi abunə yolu ilə kitabxanalara alınır və onların elektron kitabxanasına daxil edilir.Elektron nəşrlərin maddi daşıyıcıları müxtəlifdir. Elektron kitablar, jurnallar və soraq nəşrləri ilə yanaşı milyonlarla musiqi əsərləri, notlar, dissertasiyalar, avtoreferatlar elektron nəşrlərin növlərinə aid edilə bilər. Çap əsərlərinin maddi daşıyıcıları yalnız kağızdırsa, elektron nəşrlərin maddi daşıyıcıları komputerdə olan sərt disk, optik disklər, lazer diskləri və müxtəlif İnternet serverləridir.Onların informasiya tutumu kağız sənədlərə nisbətən çoxdur. Elektron nəşrlər elektron kitabxanaların başlıca informasiya resurslarını təşkil edir.

Yalnız kağız daşıyıcılarda olan materiallarla işləyən klassik kitabxanalar günün tələblərinə cavab vermədiyi üçün daha operativ, relevant və rahat istifadəli müasir kitabxanalar tərəfindən informasiya bazarında sıxışdırılır.Buna səbəb, ilk növbədə, kağız çap sənədlərinin çatışmayan xüsusiyyətləridir.Bu sə-

nədlər özündə audio, video, animasiya, multimedia verilənlərini əks etdirmir, istehsalı, tirajlanması, bərpası mürəkkəb və bahadır, dövriyyəsi ləngdir, tez korlanır. Elektron nəşrlər bütün bu çatışmazlıqdan azad olmaqla bərabər, yığcam saxlanma sahəsi tələb edir, korrektəsi və tirajlanması əlavə kağız, poliqrafiya sərfiyyatı tələb etmir, daha operativ və sadədir, əldə edilməsi asandır. Ona görə də kitabxanalar istifadəçilərə təkcə öz fondunda olan sənədləri yox, sivilizasiyanın yaratdığı bütün təsvir formalarında olan informasiyanı təqdim etmək imkanına malik olmalıdır.Bu isə yalnız müasir tələblərə cavab verən elektron kitabxanalar yaratmaqla mümkündür.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycan xalqının tarixi yaddaşını mühafizə edən ən zəngin mənəviyyat xəzinəsidir.Azərbaycan kitabını və respublika haqqında ədəbiyyatı toplayan, qoruyan və bütün dünyaya yayan universal elmi kitabxanadır.1922-ci ildə yaradılmış, rəsmi açılışı isə 1923-cü ildə olmuşdur.

1939-cu ildə kitabxanaya dramaturq, mütəfəkkir və maarifçi M.F.Axundovun adı verilmişdir.İllər keçdikcə kitabxananın fəaliyyət dairəsi genişlənmiş, yeni şöbələr yaranmış, fondlarda ədəbiyyatın sayı milyonlara, işçilərinin sayı yüzlərə çatmışdır.2003-cü ildə kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır.Bu sistem vasitəsilə elektron kitabxana təşkil edilmiş və onun vasitəsilə oxuculara elektron nəşrlərlə xidmət göstərilmişdir.

Milli Kitabxanada elektron resursların yaradılması istiqamətində də uğurlu addımlar atılmışdır.Elektron resursların yaradılması və elektron kitabxana şöbələri bu sahədə işləri iki istiqamətdə həyata keçirirlər.Bir tərəfdən kitabxanaya yeni daxil olan və ya latın qarafikası ilə çap olunan və oxucular tərəfindən daha çox soruşulan kitablar skanerdən keçirilərək elektron kitabxanaya daxil edilirlər.Təbii ki, kiril qrafikası ilə çap olunmuş kitabların elektron versiyasının yaradılması daha çox vaxt tələb etdiyindən bu işlərin surətinə mənfi təsir göstərir.

Hazırda Milli Kitabxananın elektron kitabxanasının məlumat bazasında 10 mindən çox tammətnli elektron nəşrlər oxucuların sərəncamına verilmişdir. Bu iş kitabxananın işçiləri tərəfindən adi skanerin köməyilə həyata keçirildiyindən hələ də bu sahədə lazımi operativliyə nail olunmamışdır.Göstərilən istiqamətdə köklü irəliləyişlərə nail olunmasında “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununda müvafiq düzəlişlər edilməsi və həmin qanuna Milli Kitabxanaya ölkədə dərc olunan bütün çap məhsullarının elektron variantlarının verilməsi barədə ayrıca maddə daxil edilməsi əhəmiyyətli rol oynaya bilər.

2008-ci ilin noyabr ayından Milli Kitabxanaya daxil olan 100 adda qəzet və digər dövri nəşrlərin də tammətnli elektron məlumat bazasının yaradılmasına başlanılmışdır.Başqa sözlə desək, bu nəşrlərdə çap olunan bütün materiallar skanerdən keçirilərək, ayrı-ayrı mövzular və predmetlər üzrə qruplaşdırılaraq kitabxananın saytı vasitəsilə oxucuların sərəncamına verilir.Nəticədə İnternetə çıxış imkanı olan hər bir ucqar kənd kitabxanası və yaxud onun oxucusu heç

bir çətinlik çəkmədən və əlavə vəsait ödəmədən gündəlik dövri mətbuatı oxumaq imkanı əldə etmiş olur.Artıq bu gün kitabxananın bir çox oxucuları və dünya miqyasında Azərbaycanla maraqlanan bütün insanlar Milli Kitabxananın saytı vasitəsilə onun tammətnli elektron məlumat bazalarından bəhrələnə bilərlər.

Məlum olduğu kimi tammətnli elektron nəşrlər kitabxananın elektron kitabxanasında və ya elektron məlumat bazalarında yerləşdirilir.Milli Kitabxananın elektron nəşrləri ilə tanış olmaq üçün əvvəlcə www.anl.az saytına daxil oluruq. Daha sonra açılan səhifənin sol tərəfindən elektron kitabxana və ya elektron məlumat bazaları linkinə basmaqla elektron nəşrlərə baxmaq mümkündür. Burada "Xocalı soyqırımı", "Heydər Əliyev fondu", "Azərbaycan kitabxanaları", "İşğal altında olan torpaqlarımız bizi çağırır", "Azərbaycanın hüquqi məlumat bazası" və digər elektron məlumat bazaları var.Əgər Ulu Öndər Heydər Əliyev haqqında məlumat bazasına baxmaq istəyiriksə, "Heydər Əliyev irsi" linkini seçib bu baza ilə tanış ola bilərik.

Bütün bunlarla yanaşı, Milli Kitabxana oxucularına "Kütləvi informasiyalar sistemi" adlı məlumat bazasını təqdim edir.Məlumat bazasında oxucular Rusiya və xarici ölkələrin sənaye siyasəti, yenilikləri, son 14 ili əhatə edən informasiyalar ilə tanış edilir.Burada, həmçinin şirkətlər, tenderlər, qanunvericilik və gömrük, biletlər, otellər barədə informasiyalar əldə etmək olar.

Kitabxanada XVIII əsrin sonlarından başlayaraq Azərbaycanda nəşr olunmuş dövri və ardı davam edən nəşrlərin elektron versiyaları da hazırlanır ki, bu da dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazasında yerləşib. Bu bölmədə Azərbaycanda nəşr olunan və İnternet saytı olan qəzetlərin, dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazası ayrıca linklər şəklində verilir.Bu siyahıdakı qəzet və jurnalların qarşısında il və ay qeyd olunub ki, bu da həmin mətbu orqanların hansı ayda hansı nömrəsinin elektron versiyasının hazır olmasını bildirir.Məsələn, jurnallar bölməsində "Əkinçi" jurnalını götürsək, 1921-ci il oktyabr ayından dekabr ayına qədər olan nömrələrin tam mətninin elektron versiyasının istifadəçilərə təqdim olunduğunun şahidi olarıq. Milli Kitabxananın saytının Elektron kitabxana bölməsinə vurduqda səhifə açılır ki, burada da "Azərbaycanın elektron resursları" adlı ayrıca link var.

Milli Kitabxanada dissertasiyaların da tammətnli elektron formasını əldə etmək mümkündür.Kitabxananın saytında sol tərəfdə dissertasiyaların elektron kitabxanası linkini seçməklə buraya keçid etmək olar.Bu bölmədə dissertasiyalar humanitar, texniki və təbiət elmləri üzrə qruplaşdırılmışdır.Məsələn, humanitar elmlər bölməsinə nəzər saldıqda, Kitabxana işi və Kitabxanaşünaslığa dair dissertasiyalarla tanış olmaq mümkündür.Bu dissertasiyalara misal olaraq göstərmək olar: Aslanov Knyaz "Şəxsiyyətin formalaşmasımda bədii ədəbiyyatın rolu", Babaxanova Nigar "Azərbaycan kitabxanaları beynəlxalq informasiya mühitində", İslamova Şəfəq "Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990-cı illər)", İsmayılov Xəlil "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat siste-

mi (1918-2000-ci illər), İsmayılova Nigar "Kitabxana işinin kompüterləşdirilməsinin tarixi və müasir problemləri", Pərviz Kazımi "Səfəvilər dövründə Azərbaycanda kitabxana işi", Məmmədov Mehmanəli "Azərbaycan Respublikası kitabxanalarında kitabxanlararası abonement sistemi (1918-1990-cı illər)", Qardaşov Rəşad "Azərbaycanda kitabxanaçılıq təhsili (yaranması, inkişafı və müasir vəziyyəti)", Rzayeva Zahidə "Respublika elmi kitabxanalarında informasiya axtarış sistemlərinin formalaşması mərhələləri", Xələfova Sevda "XX əsrin 70-80-ci illərində Azərbaycanda dövlət kütləvi kitabxana şəbəkəsinin inkişafı" və.s.

Eyni zamanda saytdan Elektron məlumat bazaları linkinə vurmaqla kitabxanada yaradılan elektron məlumat bazaları ilə tanış olmaq olar.Burada Ümumilli Lider Heydər Əliyev, Əziz Əliyev, Mir Cəlal Paşayev, Zərifə Əliyeva, Əhmədiyyə Cəbrayılov, Həsən Seyidbəyli, Nəriman Nərimanov, İmadəddin Nəsimi, Cəlil Məmmədquluzadə, İsmayıl Şıxlı, Mikayıl Müşfiq və digər görkəmli şəxsiyyətlərə aid elektron məlumat bazaları mövcuddur.Eyni zamanda "Zəfərlərin mübarək, Azərbaycan əsgəri", "18 oktyabr - Milli Müstəqillik Günü", "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir", "Azərbaycanın Milli Qəhrəmanları", "20 yanvar -Qan yaddaşımız", "Qarabağın incisi Şuşa" adlı elektron məlumat bazalar da yerləşdirilmişdir.

Kitabxanada olan tammətnli elektron nəşrlərdən danışdıqda notlara dair elektron nəşrləri də xüsusi qeyd etmək lazımdır.Saytın sağ tərəfində yerləşən Musiqi kitabxanası linkinə daxil olub Notlar bölməsini seçməklə onlarla tanış olmaq olar.Burada "Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, pyeslər məcmuəsi", Bağırov Zakir Cavad oğlu "Gənclik mahnısı", Cahangirov Cahangir "Azərbaycan xalq mahnıları", Ələsgərov Süleyman "Oktyabr mahnısı", Hacıbəyli Üzeyir "Əsli və Kərəm", Maqomayev Müslüm "Nərgizin ariya və nəğməsi", Mansurov Eldar "Çıraqla gəzsən", Rüstəmov Səid "Toxucu qız", Ramazanov Rüfət "Qara Qarayeva ithaf" və digər görkəmli şəxsiyyətlərə dair not nəşrləri mövcuddur.Burada təkcə yerli yox həm də xarici notlar var.

Milli Kitabxananın saytındakı Elektron kitabxana bölməsində ilk dəfə olaraq mikrofilmləşdirilmiş ədəbiyyatın, qədim ədəbiyyatın, 15 dövri və ardı davam edən nəşrlərin elektron məlumat bazası oxucuların istifadəsinə verilmişdir.Prezidentin sərəncamı əsasında Azərbaycan dilində latın qrafikası ilə çap olunmuş kitabların elektron versiyası M.F.Axundov adına Milli Kitabxananın elektron kitabxanasında yerləşdirilmişdir.

Kitabxananın Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları şöbəsi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan kitabların əksəriyyətinin elektron versiyasını hazırlayıb və oxucuların istifadəsinə təqdim edib.

Kitabxananın saytında "Prezident İlham Əliyev və mədəniyyət" adlı 2 cildlik kitaba, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti haqqında "Культура и культурные шедевры Азербайджана – уникальное послание будушим поколениям" adlı kitaba, "Üzeyir Hacıbəyli" adlı elektron məlumat bazasına, "Azərbaycan kitabı" adlı 3 cildlik biblioqrafik kitabın I və II cildlərinin elektron versiyalarına birbaşa keçid düymələri yerləşdirilib.

Bu gün Azərbaycan Milli Kitabxanası elmimizin, mədəniyyətimizin və iqtisadiyyatımızın inkişafında mühüm və aparıcı rol oynayan elmi mərkəzə çevrilmişdir.Ölkə çap məhsullarının arxiv fondunun yaradılması və etibarlı mühafizəsinin təmin olunması istiqamətində apardığı məqsədyönlü işlər onun bu şərəfli missiyanı bacarıqla yerinə yetirməsinə əyani sübutdur.

Dünyanın ən qabaqcıl avtomatlaşdırılmış kitabxana informasiya sistemi ilə işləyən kitabxanalarımızdan biri də AMEA-nın Mərkəzi Elmi Kitabxanasıdır. Mərkəzi Elmi Kitabxananın elektron kitabxanası və elektron məlumat bazaları ilə tanış olmaq üçün www.mek.az saytına daxil olmaq kifayətdir. Kitabxananın elektron kitabxanasına daxil olan tammətnli elektron nəşrlər haqqında məlumatları Elektron kitabxana bölməsindən açmaq olar.Burada Heydər Əliyev, Hüseyn Cavid, Abdulla Şaiq, Cəfər Cabbarlı, Nərgiz Axundova, Nizami Gəncəvi, Aytən Hüseynova, Əhməd Cavad, Bəkir Nəbiyev, Kamal Abdullayev, Bəxtiyar Vahabzadə və digər görkəmli şəxsiyyətlərə dair elektron nəşrlərlə tanış olmaq olar.

Məsələn, Heydər Əliyev haqqında elektron nəşrlərə baxmaq üçün Heydər Əliyev linkinə keçid edirik.Burada "Müstəqilliyimiz əbədidir", "Heydər Əliyev və qanunçuluq", "Heydər Əliyev və mədəniyyət", A.Xələfov "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", Viktor Andriyanov "Life of outstanding people.Geidar Aliev" və digər adda elektron nəşrlərə baxmaq olar.

Mərkəzi Elmi Kitabxanın əsas fondunda Elektron resurslar fondu yaradılmışdır. Bu fondda Azərbaycan dilində 1990, rus dilində 536 və xarici dildə 15 elektron resurs olmaqla, ümumilikdə 2541 ədəd elektron resurs mühafizə olunur. Kitabxanada tammətnli elektron elmi kitab və jurnalların bazasına giriş linki mövcuddur.Burada EBSCO-40.000 elektron elmi jurnalı və İNTAS-7.000 elektron kitabı əldə etmək mümkündür.

Beləliklə, AMEA MEK göründüyü kimi, kitabxana informasiya sahəsində avtomatlaşdırılmış sistemlərin tətbiqi, elektron kataloqların, elektron kitabxanaların, elektron məlumat bazalarının yaradılması, internet vasitəsilə elektron informasiya xidmətinin təşkili işlərini müvəffəqiyyətlə yerinə yetirir.

Son illər ərzində kitabxanada Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin fəaliyyəti daha da aktivləşib.Şöbənin yaradılması ilə kitabxanada bir çox ənənəvi iş sahələri yeni texnologiyalarla təchiz olunub, ənənəvi kataloq sistemi elektron kataloqla əvəzlənib, fondun elektron daşıyıcılara köçürülməsi işinə, elektron kitabxananın qurulmasına başlanılıb ki, bu da AMEA MEK-in

həm milli, həm də qlobal informasiya məkanına daha intensiv inteqrasiya etməsinə müsbət təsir göstərib.

COVİD-19 virusu ilə əlaqədar olaraq ölkədə elan olunan karantin rejimi dövründə AMEA-nın Mərkəzi Elmi Kitabxanası "Elektron kitablar" bazasında olan PDF formalı kitabları oxucular üçün elektron formada tədqim edir.PDF formatında akademik Kamal Abdullayevin "Azərbaycan dili sintaksisinin nəzəri problemləri", "Seçimin morfologiyası", mərhum akademiklər Həmid Araslının "Nizami və Vətən", Tofiq Haciyevin "Dədə Qorqud: dilimiz, düşüncəmiz", həmçinin "Dədə Qorqud dastanlarının dili", "Dədə Qorqud dünyası", "Dədə Qorqudda xanımlar" və digər nəşrlər oxuculara təqdim edilir.

AMEA Naxçıvan bölməsinin Elmi Kitabxanası da universal elmi kitabxana kimi fəaliyyət göstərir.Kitabxananın əsası 1972-ci ildə qoyulmuşdur. Ümumilli lider Heydər Əliyevin AMEA Naxçıvan bölməsinin yaradılması haqqında verdiyi 2002-ci il 7 avqust tarixli sərəncamına əsasən həmin ildən Naxçıvan bölməsinin nəzdində müstəqil elmi kitabxana kimi fəaliyyətini davam etdirməkdədir.

Kitabxanada kitab, jurnal, dövri mətbuat, avtoreferat və dissertasiya fondları fəaliyyət göstərir.Kitabxana universal elmi kitabxana olduğuna görə fondlar daha çox elmi ədəbiyyatlarla komplektləşdirilib.Kitabxana müxtəlif elmi müəssisələrdə çalışan alimlərə, elmi işçilərə, universitet müəllim və tələbələrinə, xalq təsərrüfatının müxtəlif sahələrində çalışan mütəxəssislərə xidmət göstərir.Kitabxananın fondunda Azərbaycan və rus dillərində kitablarla yanaşı, həm də Qərbi Avropa və Şərq dillərində olan ədəbiyyatlar da komplektləşrilir.Kitabxanada elektron oxucuların sayı 141-dir.Bu oxucular arasında müxtəlif elmi dərəcəsi olan alimlər, elmi işçilər, doktorant və dissertantlar daha çox üstünlük təşkil edirlər.Hər bir oxucuya yüksək elmi informasiya xidməti göstərmək kitabxananın başlıca vəzifələrindəndir.

Kitabxananın 2013-cü il sentyabr ayının 4-də elektron kitabxanası yaradılmışdır. Bu məqsədlə 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılmış, 6 oxucu yeri olan elektron oxu zalı yaradılmışdır.Kitabxana surət köçürmə aparatı, printer, mobil elektron lövhə ilə təmin olunmuşdur.Kitabxanada lokal şəbəkə və internet səhifəsi hazırlanmışdır.2013-cü ildən etibarən kitabların elektron versiyası hazırlanaraq lokal şəbəkə və ya internet vasitəsilə oxuculara təqdim olunur.Sayta davamlı olaraq müxtəlif qəzet və jurnal materiallarının tammətnli elektron nəşri yerləşdirilir.Hal-hazırda 2000-dən artıq kitabın elektron versiyası hazırlanıb internetdə və ya lokal şəbəkədə yerləşdirilmişdir.

Universal elmi kitabxanalardan danışanda Naxçıvan Muxtar Respublika Kitabxanasının da adını xüsusi qeyd etmək lazımdır.1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Naxçıvan Şəhər Kitabxanası təsis edilmiş, 1930-cu ildə həmin kitabxananın bazasında Naxçıvan Muxtar Respublika Kitabxanası yaradılmışdır.1947-ci ildə kitabxanaya böyük ədib Məmməd Səid Ordubadinin adı verilmişdir.Naxçıvan Nuxtar Respublikası Ali Məclis Sədrinin "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxana-

sının 90 illik yubileyinin keçirilməsi haqqında" 19 aprel 2012-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş tədbirlər planına əsasən, Naxçıvan Muxtar Respublikası Kitabxanasının bazasında Elektron kitabxana yaradılmışdır.2012-ci il dekabr 3-də Elektron kitabxananın təqdimatı olmuşdur.

Kitabxanada qədim kitabların elektron variantlarının hazırlanmasına daha çox önəm verilir.Kitabxanada tammətnli elektron nəşrlərin yaradılması üçün mühüm addımlar atılır.Azərbaycan kitabxanalarnın elektronlaşdırılması, elektron kitabxanaların yaradılması üçün 2007-ci il aprel ayının 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncam bu sahənin daha da inkişaf etməsini surətləndirdi.Oxucular www.e-kitab.ameanb.nmr.az saytına daxil olmaqla elektron kitabxana və orada yerləşən elektron nəşrlərlə tanış ola bilərlər.

Naxçıvan Muxtar Respublika kitabxanasının işçiləri elektron kitabxana və elektron məlumat bazalarının yaradılması işinin daha sürətlə yerinə yetirilməsi üçün səylə çalışırlar.Burada artıq 299 kitabın elektron versiyası hazırlanmışdır. Əlavə olaraq 48 dərsliyin də elektron versiyasını oxucular elektron kitabxananın fondundan əldə edə bilərlər.

Görülən işlər bununla yekunlaşmamış, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi 200-ə yaxın biblioqrafik materialların, o cümlədən dövri mətbuat, jurnal və qəzetlərdə çapdan çıxmış əhəmiyyətli məqalələrin elektronlaşdırılmasını həyata keçirmişdir.Kitabxananın saytında Qəzetlər bölməsindən "Şərq qapısı" qəzetinin tammətnli elektron versiyasını oxumaq mümkündür.

Saytda Elektron kitablar bölməsindən Kitabxana.Kitabxana işi. Biblioqrafiya və biblioqrafiyaşünaslıq linkini seşdikdə burada kitabxana işinə dair elektron nəşrlərlə tanış olmaq olar.Oxucular buradan İsmayılov Nadir "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası", Səidova Mədinə "E-kitabxanaların formalaşması problemləri", Qarayev Əbülfəs "Gənclər-İnnovasiyalar-Kitabxanalar", Məmmədova Lətifə "Azərbaycan kitabxanalar modernləşmə yolunda" və digər müəlliflərin kitablarının elektron versiyasını asanlıqla əldə edə bilərlər. Oxucular www.e-kitab.nakhchivan.az saytına daxil olmaqla oxucular tammətnli elektron nəşrlərlə yaxından tanış ola bilərlər.

**Nəticə.** Universal elmi kitabxanalarda tammətnli elektron nəşrlərin xarakteristikası və tətbiqi məslələri hal-hazırda günümüzün ən aktual məsələlərindən biridir.Aparılan tədqiqatların sonunda belə bir ümumi nəticəyə gəlmək olar ki:

1. İlk dəfə elektron nəşr Amerika professoru Maykl Hard tərəfindən 1971-ci ildə yaradılmışdır.
2. Elektron nəşr redaksiya-nəşriyyat işlənməsi mərhələsindən keçən, dəyişdirilmədən yazılmaq üçün nəzərdə tutulmuş, çıxış məlumatları olan elektron sənəd və ya sənədlər qrupudur.

3. Tammətnli elektron nəşrlər kitabxanaların elektron məlumat bazalarında və elektron kitabxanasında saxlanılır.
4. Tammətnli elektron nəşrlərin əsas daşıyıcısı komputerdə olan sərt disk, lazer diskləri, optik disklər, veb-saytlar və İnternet serverləridir.
5. Dissertasiyalar, avtoreferatlar, not nəşrləri, kitablar, jurnallar tammətnli elektron nəşrin əsas formalarıdır.
6. Müasir dövrdə bütün kitabxanalar yalnız ənənəvi formada deyil, həm də sivilizasiyanın yaratdığı bütün təsvir formalarında oxuculara xidmət göstərməlidir.
7. Respublikamızda fəaliyyət göstərən kitabxanalar, xüsusən də universal elmi kitabxanalar öz fondlarını elektron nəşrlərlə komplektləşdirmək sahəsində böyük uğurlar əldə etmişlər.
8. Universal elmi kitabxanalarda tammətnli elektron nəşrlərin hazırlanmasına daha çox önəm verilməsi onların bu sahədə öz vəzifələrini dərindən dərk etdiyini və bu yolda məsuliyyətlə çalışdıqlarını göstərir.

Sonda onu da qeyd eləmək lazımdır ki, tammətnli elektron nəşrlər kitabxana işinin və kitabxana xidmətinin əsas özəyinə çevrilərək texnoloji inqilabın baş verdiyi bu informasiya cəmiyyətində yeni mərhələnin inkişafında mühüm rol oynayır və yeni cığırlar açır.Buna görə də bu prosesin səmərəli şəkildə həyata keçirilməsi üçün kitabxanalar yalnız klassik üsulda deyil, həm də onlayn formada oxucularına xidmət göstərməli, elektron kitabxanaları və elektron məlumat bazaları vasitəsilə elektron nəşrləri oxuculara təqdim etməyi bacarmalıdırlar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunu , 1998-ci il // e-qanun.az
2. Xələfov, A. A. Kitabxanaşünaslığa giriş: Dərslik (I hissə) - Bakı, 2001.- 398 s.
3. Xələfov, A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (II hissə) - Bakı, 2003.- 314 s.
4. Rüstəmov.Ə, Mustafayeva N. Elektron kitabxana problemi [Mətn]
5. Tahirov, K.M. M.F.Axundov adına Azərbaycana Milli Kitabxanası müstəqillik illərində [Mətn] - Bakı, 2008.
6. Tahirov, K.M. M.F.Axundov adına Milli Kitabxana yeni əsrin başlanğıcında [Mətn] – Bakı, 2008.- 30 yanvar.
7. Azərbaycan Milli kitabxanasının buraxılışı: Elektron məlumat bazalarının yaradılması və virtual xidmət [Mətn] - Bakı, 2012.
8. www.anl.az
9. www.mek.az
10. https://e-kitab.nakhchivan.az
11. www.e-kitab.ameanb.nmr.az

***Айдан Шахмарова***

## *ХАРАКТЕРИСТИКА ПОЛНОТЕКСТОВЫХ ЭЛЕКТРОННЫХ ИЗДАНИЙ УНИВЕРСАЛЬНЫХ ИЗДАНИЙ УНИВЕРСАЛЬНЫХ НАУЧНЫХ БИБЛИОТЕК И ОРГАНИЗАЦИЯ ИХ ОБСЛУЖИВАНИЯ*

### *РЕЗЮМЕ*

*Статъя посвящена сравнителъному анализу полнотекстовых электронных публикаций, играющих важную ролъ в теории библиотечного дела.Процессы и средства организации информационного обслуживания читателей универсалъных библиотек, что является одним из важнейших направлений современного информационного общества, всегда находилисъ в центре внимания.Информационная революция не обошла стороной развитие универсалъных библиотек, а открыла новые направления в ее организации.В статъе аналитически проанализированы теоретические концепции исполъзованую полнотекстовых электронных публикаций в унивепсалъных научных библиотеках.И вся инфопмация здесъ основана на богатых фактах, имеющихся в теории библиотечного дела.*

***Ключевые слова:*** библиотека, универсалъная научная библиотека, электронная библиотека, электронная база данных, электронные публикации, полнотекстовые электронные публикации, источник.

***Aydan Shahmarova***

## *CHARACTERISTICS OF FULL-TEXT ELECTRONIC PUBLICATIONS IN UNIVERSAL SCIENTIFIC LIBRARIES AND ORGANIZATION OF THEIR SERVICE WITH THEM*

### *RESUME*

*The article is devoted to the comparative analysis of full-text electronic publications, which play an important role in the theory of librarianship.The processes and means of organizing information services to readers of universal libraries, which is one of the most important directions of the modern information society, have always been in the center of attention.The information revolution did not bypass the development of universal libraries and brought new directions to its organization.The article analytically analyzes the theoretical concepts of the use of full-text electronic publications in universal scientific libraries.And all the information here is based on the rich facts available in the theory of librarianship.*

***Keywords:*** library, universal scientific library, electronic library, electronic database, electronic publications, full-text electronic publications, source.

**Rəyçi:** t.ü.f.dok. R.Ə.Qardaşov